# Ümummilli Lider Heydər Əliyev - 100


# ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Qüvvət elmdədir...

Nizami Gəncəvi

НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

SCiENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 16 (1370) ❖ Bazar ertəsi, 8 may 2023-cü il ❖ XÜSUSİ BURAXILIŞ ❖ Qəzet 1984-cü ildən nəşr olunur




## AMEA-nın Ümumi yığıncağının Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Xüsusi iclası

# AMEA-nın Ümumi yığıncağının 100 illik yubileyinə həsr

## AMEA-nın Ümumi yığıncağının Xüsusi iclasının iştirakçıları Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər





Mayın 1-də keçirilən Azərbaycan Milli Elmlər Akademiyasının Ümumi yığıncağının "Görkəmli dövlət xadimi Heydər Əliyev: lider, zaman və müasirlik" mövzusunda Xüsusi iclasının iştirakçıları Fəxri Xiyabanda müasir Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət ediblər. Azərbaycanın və dünya elmi ictimaiyyətinin nümayəndələri Ulu Öndərin məzarı üzərinə tər gül dəstələri qoyub, onun ruhu qarşısında baş əyiblər.

Ümummilli Liderin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olunub, məzarları üstünə gül dəstələri düzülüb.

## Görkəmli dövlət xadimi Heydər Əliyev: lider, zaman və müasirlik

**Mayın 1-də Azərbaycan Milli Elmlər Akademiyasının Ümumi yığıncağının "Görkəmli dövlət xadimi Heydər Əliyev: lider, zaman və müasirlik" mövzusunda Xüsusi iclası keçirilib.**

Əvvəlcə tədbir iştirakçıları Fəxri Xiyabanda müasir Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini anıb, məzarları önünə tər çiçəklər düzüblər.

AMEA-nın Əsas binasında baş tutan tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının, Elm və Təhsil Nazirliyinin, Ali Attestasiya Komissiyasının, eləcə də Türkiyə, Özbəkistan, Gürcüstan Elmlər Akademiyalarının, Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun, Asiya Akademiyaları və Elmi Cəmiyyətləri Assosiasiyasının rəhbərliyi və nümayəndələri, dövlət və hökumət rəsmiləri, millət vəkilləri, Türkiyənin Azərbaycandakı səfiri və KİV əməkdaşları iştirak ediblər.

Yığıncaqdan öncə Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən nəşrlərdən və rəsm əsərlərindən ibarət sərgiyə baxış keçirilib.

Xüsusi iclas Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Tədbirdə "Heydər Əliyevin müstəqil dövlətçilik idealları və müasir dövr" mövzusunda giriş nitqi ilə çıxış edən **AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli** bildirib ki, bu dahi şəxsiyyətin simasında Azərbaycan dövlətçilik tarixində mühüm yer tutan Atabəylər dövlətinin məharəti, Səfəvilər imperiyasının qüdrəti, Şirvanşahlar hakimiyyətinin siyasəti cəmləşmişdir. Azərbaycan xanlıqlarının nümayiş etdirdikləri milli qürur da Heydər Əliyevin şəxsiyyətində qabarıq surətdə özünü göstərən faktorlardandır.

Akademik qeyd edib ki, Azərbaycan tarixinə müstəqillik kimi parlaq və tarixi bir səhifə yazmış Xalq Cümhuriyyəti rəhbərlərinin Azərbaycan idealı Heydər Əliyevin dövlətçilik təliminin əsas mahiyyətini və hədəflərini təşkil etmişdir. SSRİ adlandırılan qırmızı terror bolşevik dövlətinin tərkibində olan digər xalqları əridib sıradan çıxarmaq siyasətinin qarşısında milli-mənəvi dəyərlərin dövlət siyasəti səviyyəsində yaşadılması və möhkəmləndirilməsi də möhtəşəm Heydər Əliyev obrazının ana xətlərini müəyyən edir.

"Məhz bu cəhəti, yəni mənsub olduğu xalqın tarixi keçmişini unutdurmaq və soykökündən ayırmaqla onun milli-mənəvi varlığını yox etmək siyasətinin görünən və görünməyən bütün tərəflərini dərindən dərk etməsi Heydər Əliyevin dövlətçilik təliminə milli istiqlal ideyasını gətirmişdir. O, hələ sovet hakimiyyəti illərində kommunist imperiyasının daxildən çökməkdə olduğunu hamıdan daha dərindən hiss etdiyi üçün xalqını gələcək dövlət müstəqilliyinə hazırlamaq missiyasını qabaqcadan böyük bacarıqla həyata keçirmişdir. Heydər Əliyev cəmiyyəti yeniləşdirməklə inkişaf etdirmək vəzifəsini həyata keçirmişdir. Qorbaçovsayağı kosmik dəyişmələrdən fərqli olaraq, Heydər Əliyevin mövcud sistem daxilində dəyişiklik uğrunda apardığı mübarizə nəticə etibarilə qüvvəsini təşkil etmişdir. Bu mənada Heydər Əliyev təkcə Azərbaycanda deyil, keçmiş SSRİ miqyasında müstəqil dövlətçilik ideyasının banisidir", - deyə akademik İsa Həbibbəyli bildirib.

Natiq vurğulayıb ki, Ermənistanla və onun havadarları ilə davam edən müharibəni dayandırmaq və atəşkəs rejiminə nail olmaq və müstəqil dövlətin ordusunu qurmaq da Heydər Əliyev siyasətinin ən mühüm nəticələri sırasındadır. Həmçinin xarici güclərin



təzyiqlərinə baxmayaraq, Azərbaycanın əsas sərvəti olan neft və qazın dünya bazarlarına çıxarılması məqsədilə beynəlxalq birlik tərəfindən imzalanmış "Əsrin müqaviləsi" Heydər Əliyevin möhtəşəm əsəridir. Müstəqil respublikalara çevrilmiş postsovet ölkələrində ilk olaraq torpaq islahatlarına başlamaq və onu qısa müddətdə axıra çatdırmaq da Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin modelini qurmuş və möhkəm siyasi-ideoloji əsaslarını yaratmışdır.

AMEA prezidenti diqqətə çatdırıb ki, Azərbaycan Respublikasının dövlət ideologiyası olan Azərbaycançılıq təlimi Heydər Əliyev tərəfindən kəşf edilmişdir və Azərbaycan xalqı, Azərbaycan dili, Azərbaycançılıq ideologiyası kimi anlayışlar ölkəmizin müstəqillik tarixində siyasi sabitliyə və vətəndaş həmrəyliyinə nail olmaq üçün Heydər Əliyevin müəyyən etdiyi düsturlardır.

"Heydər Əliyev xalqına və ölkəsinə etibarlı dostlar və strateji müttəfiqlər qazandırmağın dəqiq formullarını kəşf etmiş dahi şəxsiyyətdir. Çoxəsrlik tarixi ənənələrə malik olan Azərbaycan-Türkiyə münasibətləri Heydər Əliyevin "Bir millət - iki dövlət" düsturu ilə möhtəşəm birlik və həmrəylik səviyyəsinə yüksəlmişdir. Bu gün hərtərəfli şəkildə inkişaf etməkdə olan türk dövlətləri birliyi "Bir millət - iki dövlət" düsturunun böyük strateji imkanlara malik olduğunu nümayiş etdirir", - deyə AMEA rəhbəri qeyd edib.

Prezident İlham Əliyevin müstəqil Azərbaycanı inkişaf etməkdə olan ölkədən bütün istiqamətlər üzrə inkişaf etmiş dövlətlərin cərgəsinə doğru aparmaqla yeni tarixi epoxada öz erasını yaratmış qüdrətli lider olduğunu deyən akademik İsa Həbibbəyli Ali Baş Komandanın 44 günlük Vətən müharibəsində işğalçı Ermənistan üzərində qazandığı tarixi Zəfərin Azərbaycanın çoxəsrlik tarixinin möhtəşəm qəhrəmanlıq dastanı olduğunu söyləyib. Qeyd edib ki, Prezident İlham Əliyevin dünyada BMT-dən sonra ən böyük siyasi təşkilat olan Qoşulmama Hərəkatına liderlik etməsi Heydər Əliyevin sovet hakimiyyəti illərində Siyasi Büro zirvəsini fəth etməsinin yeni tarixi şəraitdəki nümunəsidir.

Həmçinin bildirib ki, bu gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Heydər Əliyev Fondu vasitəsilə həyata keçirdiyi bir çox layihələrlə Ulu Öndərin ideyalarını uğurla davam və inkişaf etdirir.

Akademik İsa Həbibbəyli qeyd edib ki, Ümummilli Liderin 100 illik yubileyi çərçivəsində keçirilən bir çox konfranslarla, ərsəyə gətirilən sanbal-

# Ümummilli Lider Heydər Əliyevin olunmuş Xüsusi iclası

## Görkəmli dövlət xadimi Heydər Əliyev: lider, zaman və müasirlik





lı nəşrlərlə Azərbaycan alimləri və təhsil işçiləri Ulu Öndərin ruhu qarşısında mənəvi borclarını yerinə yetirirlər.

Akademik çıxışının sonunda vurğulayıb ki, görkəmli dövlət xadimi Heydər Əliyev əbədiyyət qazanmış Ümummilli Lider kimi müstəqil dövlətçilik idealları və dərsləri ilə həm xalqının qəlbində, həm də Azərbaycan Respublikasının inkişafının hər addımında yaşamaqda davam edir.

**Türkiyə Elmlər Akademiyasının prezidenti, professor Müzəffər Şəkər** "Azərbaycan-Türkiyə birliyi və həmrəyliyi: tarix və müasirlik" adlı məruzəsində bildirib ki, Heydər Əliyevin Azərbaycanın siyasi və ictimai həyatındakı xidmətləri misilsiz olmuşdur və onun uzaqgörənliyi, liderliyi və Azərbaycan xalqına sarsılmaz sədaqəti həmişə minnətdarlıqla xatırlanacaqdır. O qeyd edib ki, Azərbaycan-Türkiyə dostluğu çoxəsrlik ortaq dilə, tarixə və mədəniyyətə əsaslanır və bu gün ölkələrimiz bir çox sahələrdə möhkəm strateji tərəfdaşlığa malikdir: "İki ölkə arasında münasibətlər heç vaxt bu qədər güclü olmayıb və biz gələcək illərdə də əlaqələrimizin daha da möhkəmlənməsinə sadiqik. İki ölkənin birliyi və həmrəyliyi təkcə bizim üçün deyil, həm də bütün regionun sabitliyi və rifahı üçün vacibdir. Azərbaycan və Türkiyə mürəkkəb və daim dəyişən dünyada tərəqqidədir və biz qarşıda duran bütün çətinliklərin öhdəsindən gəlmək üçün birlikdə çalışmalıyıq. Vətən müharibəsində Türkiyə Azərbaycanın yanında oldu, siyasi, mənəvi dəstək verdi və başda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və digər yüksək vəzifəli rəsmilərimiz olmaqla Azərbaycanla həmrəy olduqlarını ifadə etdi, Ermənistanın qanunsuz işğalını pislədilər. Bəxtiyar Vahabzadənin dediyi kimi, "Azərbaycan və Türkiyə bir ananın iki oğludur". Qarabağ müharibəsi bizim bir-birimizi dəstəkləmək üçün birgə səylərimizin yalnız bir nümunəsidir və biz qarşıda duran istənilən çətinliyə qarşı birlikdə olmağa davam edəcəyik".

**Özbəkistan Elmlər Akademiyasının vitse-prezidenti, akademik Siracəddin Mirzayev** "Özbəkistan-Azərbaycan əlaqələri: Heydər Əliyevdən İlham Əliyevə" mövzusunda məruzə ilə çıxış edərək ortaq tarixə və mədəniyyətə malik olan Azərbaycan və özbək xalqları arasındakı dostluq və qardaşlıq əlaqələrinin tarixindən bəhs edib. Özbəkistanla Azərbaycan arasındakı yüksək inkişaf səviyyəsinə çatmış əlaqələrin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə genişləndirilməyə başlanıldığını, iki qardaş xalqın bir-birinə daha da yaxınlaşması üçün mühüm tədbirlərin görüldüyünü qeyd edib. Akademik S.Mirzayev Azərbaycan və Özbəkistanın dövlət müstəqilliklərini əldə etdikdən sonra tarixi dostluq və qardaşlıq münasibətlərinin daha da inkişaf etdirildiyini vurğulayıb.

Son illər bu əlaqələrin möhkəmləndirilməsi məqsədilə hər iki dövlət başçısı tərəfindən əməli addımların atıldığını deyən S.Mirzayev siyasi, diplomatik əlaqələr, iqtisadi münasibətlərlə paralel olaraq ədəbi-mədəni, elmi əməkdaşlığın da yüksələn xətlə inkişafına nail olunduğunu diqqətə çatdırıb. O, bu baxımdan Özbəkistan Elmlər Akademiyası ilə AMEA-nın elmi əlaqələrinin önəminə toxunub, bu münasibətlərin daha da inkişaf etdirilməsinə maraqlı olduqlarını ifadə edib.

**Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun başqanı, professor Yüksel Özgen** "Bir millət - iki dövlət" strategiyası: Mustafa Kamal Atatürkdən Heydər Əliyevə" adlı məruzəsində vurğulayıb ki, ortaq tarixi mədəniyyətə və daim dost, qardaş münasibətlərə malik olan iki ölkə arasındakı əlaqələr keçmişdən bu günə Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" sözləri çərçivəsində formalaşıb. Azərbaycanın tarixində Heydər Əliyevin yeri və önəminin açıq şəkildə görüldüyünü deyən məruzəçi Dahi Liderin Azərbaycanın müstəqillik əldə etməsində və Qafqaz regionunda sülhün, sabitliyin və inkişafın əldə olunmasında mühüm rol oynadığını, Ulu Öndərin bütün həyatını Azərbaycana həsr etdiyini söyləyib.

**Azərbaycan Respublikası Milli Məclisinin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri, millət vəkili Sadiq Qurbanov** "Heydər Əliyevin dövlətçilik təlimində Azərbaycançılıq ideologiyası" adlı məruzəsində qeyd edib ki, Heydər Əliyev şəxsiyyəti, onun siyasi fəaliyyəti və tarixi siyasət məktəbi Azərbaycanın ictimai-milli şüurunda əvəzsiz rol oynayıb, o, vətəndaş fəallığı ilə qətiyyət və prinsipiallığı, hərtərəfli hazırlığı, dərin biliyi, geniş siyasi və mədəni dünyagörüşü olan rəhbər kimi dünyanın bütün mürəkkəb proseslərindən baş çıxararaq və dahiyanə qərarları ilə xalq arasında böyük hörmət qazanıb. Onun sözlərinə görə, Ümummilli Liderin dövlətçilik düşüncəsinin mayasını müstəqillik ideyası təşkil edib: "Heydər Əliyev dövlətçilikdə müstəqillik ənənələrinin möhkəmlənməsində tarixi varislik kontekstində yeni ideoloji konsepsiya irəli sürürdü. Bu konsepsiya azərbaycançılıq ideologiyası idi. Heydər Əliyevin yaratdığı konsepsiya tarixi şüura əsaslanırdı. Odur ki, yeni konsepsiya tarixi varislik və yeni siyasi şərait kontekstində qiymətləndirilməlidir. Heydər Əliyevin azərbaycançılıq təlimi müstəqil dövlətçilik ideologiyası olmaqla bərabər, dövlət müstəqilliyimizin ideya-siyasi istiqamətini bəyan edir. Ulu Öndər Heydər Əliyevin kəşf etdiyi azərbaycançılıq ideologiyası sözün əsl mənasında mükəmməl bir milli birlik platformasıdır".

**Gürcüstan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik Roin Metreveli** "Görkəmli dövlət xadimi Heydər Əliyev və Gürcüstan" adlı məruzəsində qeyd edib ki, ən çətin geosiyasi şəraitdə, böyük təzyiqlərə baxmayaraq, 1996-cı ildə Eduard Şevardnadze ilə Heydər Əliyev arasında Bakı-Supsa neft kəmərinin tikintisinə dair müqavilə imzalanıb. Məhz bu saziş sonralar Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kimi tarixi layihələrin əsasını təşkil etdi: "O vaxtdan bu günə kimi çox sayda strateji əhəmiyyətli layihələrin həyata keçirilməsi davam etdirilir. Onlar regionun enerji təhlükəsizliyini və siyasi sabitliyini, eyni zamanda ölkələrimizin suverenliyini və təhlükəsizliyini təmin edir. Həmin illərdə bütün dünyanın Gürcüstanı qeyri-sabit ölkə kimi tanıdığı, Gürcüstan ərazisinin 20%-nin işğal olunduğu, daxili siyasi və iqtisadi problemlərin baş verdiyi çətin dövrü unutmaq mümkün deyil. Bu dövr Azərbaycan üçün də asan olmadı. Qarabağ müharibəsini və daxili qarşıdurmaları xatırlamaq kifayətdir. Gürcüstan üçün hər şeyin qıt olduğu dövrdə, elektrik enerjisinin və yanacağın çatmadığı bir vaxtda özü də kifayət qədər ağır vəziyyətdə olan Azərbaycan şəxsən Heydər Əliyevin tapşırığı ilə ölkəmizə kömək edirdi. Boru kəmərlərinin çəkilməsi böyük əhəmiyyət kəsb edirdi və bu gün də ekspertlər və siyasətçilər Heydər Əliyevin bu qərarının tarixi və həlledici əhəmiyyətə malik olduğunu qeyd edirlər. Heydər Əliyev layihələrin həyata keçirilməsi üçün Gürcüstan marşrutunu seçdi və gürcü xalqı buna görə ona əbədi minnətdar olacaq".

Daha sonra **Asiya Elmlər Akademiyaları və Cəmiyyətləri Assosiasiyasının (AASSA) prezidenti, professor Əhməd Nuri Yurdusev** "Asiyadan baxanda Heydər Əliyev" adlı məruzəsini təqdim edib. Professor Ə.Yurdusev Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə Asiya qitəsində xüsusi mövqeyi olan Cənubi Koreya ilə münasibətlərin yaradılması və inkişaf etdirilməsinə böyük önəm verdiyini qeyd edib. Alimin sözlərinə görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2007-ci ildə Cənubi Koreyaya səfəri nəticəsində bu ölkə ilə əməkdaşlığın geniş perspektivləri müəyyən olunmuş və konkret proqramlar üzrə işbirliyinə meydan açılmışdır.

Rəhbərlik etdiyi Assosiasiyanın fəaliyyət istiqamətləri haqqında ətraflı məlumat verən professor Ə.Yurdusev Asiya Elmlər Akademiyaları və Assosiasiyaları Cəmiyyətinin 34 ölkənin Elmlər Akademiyalarını əhatə etdiyini bildirib. AASSA-nın prezidenti bu yaxınlarda AMEA-nın da qurumun tam səsvermə hüququna malik üzvlüyünə qəbul edildiyini diqqətə çatdırıb və bu üzvlüyün Asiyada elmi əməkdaşlığın daha da genişlənməsinə xidmət edəcəyinə əmin olduğunu söyləyib. O, bu əməkdaşlığın AMEA-nın Asiya qitəsində fəaliyyət göstərən yüksək elmi qurumlarla əməkdaşlığına geniş şərait yaradacağını qeyd edib.

**AMEA-nın vitse-prezidenti v.i.e., akademik Gövhər Baxşəliyeva** "Heydər Əliyevin Şərq siyasətində türk dünyası" adlı məruzəsindən diqqətə çatdırıb ki, Ulu Öndər dövlətin xarici siyasətində Azərbaycanın Şərqlə Qərb arasında siyasi, iqtisadi, elmi, mədəni və s. sahələrdə körpü rolunu oynamasından maksimum istifadə etməyə çalışırdı. Onun xarici siyasətində, Şərqə münasibətdə, qonşu ölkələrlə, xüsusən Türkiyə, Pakistan və digər ölkələrlə münasibətlərdə dahi uzaqgörənlik, müdriklik və mahir davranış həmişə duyulurdu. Azərbaycanla çoxsaylı dini, mədəni, etnik tellərlə bağlı olan Yaxın və Orta Şərq ölkələri ilə bərabərhüquqlu münasibətlər qurulur, regionda yerləşən bütün dövlətlərlə mehriban qonşuluq əlaqələri saxlanılır, bu əlaqələr inkişaf etdirilərək möhkəmləndirilirdi və indiyədək də bu siyasət uğurla davam etdirilir: "Burada əsasən dünyada geostrateji əhəmiyyətə malik olan, eyni zamanda region problemləri ilə hər hansı bir əlaqəsi olan və bizə coğrafi və siyasi cəhətdən yaxın olan ölkələrlə münasibətlərə daha cox diqqət yetirilirdi. Belə ölkələrə birinci növbədə Türkiyə, Pakistan, İran, Səudiyyə Ərəbistanı, Misir və s. aiddir. Bu və İslam Əməkdaşlıq Təşkilatına daxil olan digər ölkələrin Azərbaycana dəstəyi, mənəvi yardımı gənc dövlətimiz üçün çox vacib idi. Bütün bu amilləri nəzərə alan Ümummilli Lider Heydər Əliyevin apardığı siyasət nəticəsində bu sahədə böyük uğurlar qazanılmış və qazanılmaqdadır".

**AMEA-nın Gənc Alim və Mütəxəssislər Şurasının sədrinin müavini, f.ü.f.d. Şəfa Əliyeva** "Heydər Əliyevin idealları və müasir gənclik" adlı məruzəsində vurğulayıb ki, hər bir Azərbaycan gənci üçün müstəqil Azərbaycan dövlətinin vətəndaşı olmaq böyük iftixar mənbəyidir və Ulu Öndərin apardığı çətin və şərəfli mübarizə, həyata keçirdiyi müdrik siyasət Azərbaycanda müstəqil dövlətçiliyin qurulmasına, qorunub saxlanılmasına və möhkəmləndirilməsinə yol açmışdır: "Biz Azərbaycan Respublikasının Prezidenti, XXI əsr dünya liderlərindən biri olan İlham Əliyevin müstəqil dövlətimizin inkişaf etdirilməsi və ölkəmizin beynəlxalq aləmdəki nüfuzunun daha qüvvətləndirilməsi yollarında atdığı bütün addımları ürəkdən bəyənir və müdafiə edirik. Biz, Azərbaycan gəncləri fəxr edirik ki, bütün dünyada görkəmli dövlət xadimi kimi qəbul edilən Heydər Əliyevin nəvələri və davamçılarıyıq".

Sonda çıxış edən AMEA rəhbəri bildirib ki, bu gün Prezident İlham Əliyev Azərbaycanı bütün istiqamətlərdə inkişaf etdirib, dünya siyasətində yerini möhkəmləndirib və müstəqil Azərbaycan Respublikası Ulu Öndərin ideyaları işığında Prezident İlham Əliyevin liderliyində sabaha inamla irəliləyir.

# AMEA-nın Ümumi yığıncağının 100 illik yubileyinə həsr

## AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin çıxışı





Görkəmli dövlət xadimi Heydər Əliyev hər şeydən əvvəl Azərbaycan reallığının meydana çıxardığı qüdrətli liderdir. O, XX əsrdə Xalq Cümhuriyyətinin acı məğlubiyyətinin ibrətamiz dərslərini yaşamış, qanlı 37-ci ilin repressiyalarının ağır imtahanlarını vermiş, xalqı çətinliklərdən çıxararaq irəliyə doğru aparmağı bacaran liderə olan ehtiyac zəminində Azərbaycan xalqının öz içindən doğan fenomenal tarixi şəxsiyyətdir.

Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyev ölkəmizin çoxəsrlik dövlətçilik ənənələrinin əsasında yetişib formalaşmış görkəmli dövlət xadimidir. Bu dahi şəxsiyyətin simasında Azərbaycan dövlətçilik tarixində mühüm yer tutan Atabəylər dövlətinin məharəti, Səfəvilər imperiyasının qüdrəti, Şirvanşahlar hakimiyyətinin siyasəti cəmləşmişdir. Azərbaycan xanlıqlarının nümayiş etdirdikləri milli qürur da Heydər Əliyevin şəxsiyyətində qabarıq surətdə özünü göstərən faktorlardandır. Heydər Əliyev çar Rusiyası imperiyasının daxili mahiyyətinə lazımi şəkildə bələd olduğu üçün Heydər Əliyev rəhbərlik etdiyi respublikanın daxili imkanlar əsasında inkişaf etdirilməsi üçün nə mümkündür hamısını etmişdir. Azərbaycan tarixinə müstəqillik kimi parlaq və tarixi bir səhifə yazmış Xalq Cümhuriyyəti rəhbərlərinin Azərbaycan idealı Heydər Əliyevin dövlətçilik təliminin əsas mahiyyətini və hədəflərini təşkil etmişdir. SSRİ adlandırılan qırmızı terror bolşevik dövlətinin tərkibində olan digər xalqları əridib sıradan çıxarmaq siyasətinin qarşısında milli-mənəvi dəyərlərin dövlət siyasəti səviyyəsində yaşadılması və möhkəmləndirilməsi də möhtəşəm Heydər Əliyev obrazının ana xətlərini müəyyən edir.

Məhz bu cəhəti - yəni mənsub olduğu xalqın tarixi keçmişini unutdurmaq və soy-kökündən ayırmaqla onun milli-mənəvi varlığını yox etmək siyasətinin görünən və görünməyən bütün tərəflərini dərindən dərk etməsi Heydər Əliyevin dövlətçilik təliminin milli istiqlal ideyasını gətirmişdir. O, hələ sovet hakimiyyəti illərində kommunist imperiyasının daxildən çökməkdə olduğunu hamıdan daha dərindən hiss etdiyi üçün xalqını gələcək dövlət müstəqilliyinə hazırlamaq missiyasını qabaqcadan böyük bacarıqla həyata keçirmişdir. XX əsr sovet rəhbərlərinin əsas idealı mövcud sistemi qorumaqdan ibarət idi. Heydər Əliyev isə cəmiyyəti yeniləşdirməklə inkişaf etdirmək vəzifəsini həyata keçirmişdir. Qorbaçovsayağı kosmik dəyişmələrdən fərqli olaraq, Heydər Əliyevin mövcud sistem daxilində dəyişiklik uğrunda apardığı mübarizə nəticə etibarilə üstünlük təşkil etmişdir. Bu mənada Heydər Əliyev təkcə Azərbaycanda deyil, keçmiş SSRİ miqyasında müstəqil dövlətçilik ideyasının banisidir. Azərbaycanda dövlət müstəqilliyi uğrunda mübarizə Heydər Əliyevin milli istiqlal konsepsiyasının işığında həyata keçirilmişdir. Bu uzaqgörən dahi şəxsiyyət Sovetlər İttifaqı dövründə formalaşdırdığı milli istiqlal idealını həm də qətiyyətlə ideyadan həyata keçirmək vəzifəsini də gerçəkləşdirmişdir. Keçmiş Sovet dövlətinin rəhbərləri arasında yeganə olaraq Heydər Əliyev həmin dövlətin hələ mövcud olduğu şəraitdə, 17 noyabr 1990-cı il tarixdə çağırılmış Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında sovet bayrağını siyasi səhnədən çıxararaq, əvəzində öz ölkəsinin milli dövlətçilik rəmzi olan unutdurulmuş tarixi bayrağını kommunist partiyasının regional mərkəzinin iqamətgahı üzərində ucaltmağa nail olmuşdur.

Heydər Əliyev 1990-cı ildə sovet dövlətinin paytaxtı Moskva şəhərindəki Azərbaycanın Daimi nümayəndəliyindən 20 yanvar faciəsinə görə SSRİ rəhbərlərini kəskin tənqid atəşinə tutan bəyanatlar səsləndirmişdir.

Bu qətiyyətli addımı ilə Heydər Əliyev müttəfiq respublikalarda və o cümlədən Azərbaycanda milli hərəkat dalğasını genişləndirərək regiondan paytaxt səviyyəsinə çatdırmışdır.

Heydər Əliyev sovet hökümətinin hələ qüvvədə olduğu vaxtda, 19 iyul 1991-ci ildə SSRİ Nazirlər Soveti partiya təşkilatına kommunist partiyası sıralarından çıxmasını rəsmi şəkildə bəyan etməsi ilə həmin rejimin çökməsinə zərbə vuran yeganə dövlət xadimidir.

SSRİ-nin hələ tarix səhnəsində fəaliyyətini davam etdirdiyi dövrdə onu açıq şəkildə ittiham etmək və hakim partiyanın sıralarını tərk etmək, dünyanın iki böyük dövlətindən birinin bayrağını taxtdan salmaq cəsarəti və uzaqgörənliyi nümayiş etdirmiş Heydər Əliyev bütün bu addımları ilə SSRİ-nin mövcudluğuna ağır zərbələr vurmuşdur. Bununla Heydər Əliyev təkcə Azərbaycanda deyil, SSRİ-nin tərkibinə daxil olan digər müttəfiq respublikalarda da milli istiqlal hərəkatına bir ordudan çox xidmət etmişdir.

SSRİ kimi bir derjavanın dağılması üçün düşünülmüş cəsarətli addımlar atması ilə Heydər Əliyev ümumdünya tarixinin istiqamətinin dəyişdirilməsinə xidmət etmişdir. Bununla Heydər Əliyev dünya xəritəsinin yenidən çəkilməsinin mümkünlüyünü isbat etmişdir.

Müstəqil dövlət quruculuğu istiqamətində də böyük uğurla sınaqlardan çıxmış Heydər Əliyev təlimi mövcuddur. Müstəqil dövlətçiliyi süquta uğratmaq üçün ölkədə körükləndirilmiş vətəndaş müharibəsini qansız-qurbansız dayandırmağı bacarmaq və ölkədə yaşayan bütün xalqların siyasi həmrəyliyinə nail olmaq Heydər Əliyevin dövlətçilik təliminin əyani təzahürlərindən biridir.

Ermənistanla və onun havadarları ilə davam edən müharibəni dayandırmaq və atəşkəs rejiminə nail olmaq və müstəqil dövlətin ordusunu qurmaq da Heydər Əliyev siyasətinin ən mühüm nəticələri sırasındadır.

Heydər Əliyev məkrli xarici qüvvələrin dəstəyi ilə yeni qurulmuş müstəqil respublikada real dövlət çevrilişi cəhdlərinin qarşısını almağı bacarmış qüdrətli liderdir.

Xarici güclərin təzyiqlərinə baxmayaraq, Azərbaycanın əsas sərvəti olan neft və qazın dünya bazarlarına çıxarılması məqsədilə beynəlxalq birlik tərəfindən imzalanmış "Əsrin müqaviləsi" Heydər Əliyevin möhtəşəm əsəridir.

Müstəqil respublikalara çevrilmiş postsovet ölkələrində ilk olaraq torpaq islahatlarına başlamaq və onu qısa müddətdə axıra çatdırmaq da Heydər Əliyevin adı ilə bağlıdır.

Azərbaycan Respublikasında planlı sosialist təsərrüfatından azad bazar iqtisadiyyatına keçid proseslərinin həyata keçirilməsi və inkişaf etdirilməsi də Heydər Əliyevin müstəqil dövlətçilik istedadının real göstəricilərindəndir.

Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin modelini qurmuş və möhkəm siyasi-ideoloji əsaslarını yaratmışdır.

Azərbaycan Respublikasının dövlət ideologiyası olan Azərbaycançılıq təlimi Heydər Əliyev tərəfindən kəşf edilmişdir. Azərbaycan xalqı, Azərbaycan dili, Azərbaycançılıq ideologiyası kimi anlayışlar ölkəmizin müstəqillik tarixində siyasi sabitliyə və vətəndaş həmrəyliyinə nail olmaq üçün Heydər Əliyevin müəyyən etdiyi düsturlardır.

Heydər Əliyev - qeyri-adi yaddaşa, dəmir məntiqə, hərtərəfli biliklərə, geniş dünyagörüşə malik olan nadir dövlət xadimlərindən biridir.

Heydər Əliyev xalqına və ölkəsinə etibarlı dostlar və strateji müttəfiqlər qazandırmağın dəqiq formullarını kəşf etmiş dahi şəxsiyyətdir. Çoxəsrlik tarixi ənənələrə malik olan Azərbaycan-Türkiyə münasibətləri Heydər Əliyevin "Bir millət - iki dövlət" düsturu ilə möhtəşəm birlik və həmrəylik səviyyəsinə yüksəlmişdir. "Bir millət - iki dövlət" formulu Azərbaycan-Türkiyə münasibətlərini ortaq tarixi köklərin dərk edilməsi müstəvisindən hərbi-siyasi müttəfiqlik mərhələsinə çatdırmışdır. Bu gün hərtərəfli şəkildə inkişaf etməkdə olan türk dövlətləri birliyi "Bir millət - iki dövlət" düsturunun böyük strateji imkanlara malik olduğunu nümayiş etdirir.

Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qüdrətli yaradıcısıdır. Müstəqil Azərbaycan dövləti Heydər Əliyevin şah əsəridir.

Seçilmiş sovet rəhbərlərindən yalnız Heydər Əliyev xalqının azadlığının və müstəqil dövlətinin qorunub saxlanılması və daha da möhkəmləndirilməsi naminə özünün layiqli siyasi varisini yetişdirib hazırlamışdır.

Beləliklə, Heydər Əliyev Azərbaycanda və dünyada müstəqil dövlətçilik modelinin müəllifidir. Heydər Əliyevin müstəqil dövlətçilik təlimi yeni dövlət müstəqilliyi qazanmış xalqlar və ölkələr üçün mükəmməl bir dərsdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müstəqil Azərbaycanı inkişaf etməkdə olan ölkədən bütün istiqamətlər üzrə inkişaf etmiş dövlətlərin cərgəsinə doğru aparmaqla yeni tarixi epoxada öz erasını yaratmış qüdrətli liderdir.

Prezident İlham Əliyevin 44 günlük Vətən müharibəsində işğalçı Ermənistan üzərində qazandığı tarixi Zəfər Azərbaycanın çoxəsrlik tarixinin möhtəşəm qəhrəmanlıq dastanıdır.

İlham Əliyevin dünyada BMT-dən sonra ən böyük siyasi təşkilat olan Qoşulmama hərəkatına liderlik etməsi Heydər Əliyevin sovet hakimiyyəti illərində Siyasi Büro zirvəsini fəth etməsinin yeni tarixi şəraitdəki nümunəsidir.

Mənsub olduğu xalqın tarixində və taleyində davamlı inkişafa nail olması və ideyalarının davam etdirilərək yaşadılmaqda davam etdirilməsi Heydər Əliyevi Azərbaycan xalqının Ümummilli lideri səviyyəsinə ucaltmışdır.

Ümummilli liderlik - Heydər Əliyevin Azərbaycanın çoxəsrlik dövlətçilik tarixinə gətirdiyi yeni zirvədir.

Ümummilli liderlik - dünya liderliyi miqyasında da fərqli və parlaq bir səhifədir.

Heydər Əliyev dünya liderləri sırasında Ümummilli liderlik miqyası nümayiş etdirən nadir tarixi şəxsiyyətlərdəndir.

Azərbaycan xalqı və müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin elan etdiyi "Heydər Əliyev İli"ni təntənəli surətdə bayram etməklə müstəqil dövlətçiliyin əbədiyyət qazanmasının şərəfini yaşayır.

Görkəmli dövlət xadimi Heydər Əliyev əbədiyyət qazanmış Ümummilli lider kimi müstəqil dövlətçilik idealları və dərsləri ilə həm xalqın qəlbində və həm də Azərbaycan Respublikasının inkişafının hər addımında yaşamaqda davam edir.

# Ümummilli Lider Heydər Əliyevin olunmuş Xüsusi iclası

## Türkiyə Elmlər Akademiyasının prezidenti, professor Müzəffər Şəkərin çıxışı



Sayın Bilim Akademileri Başkanları, Azerbaycan Milli Bilimler Akademisi'nin değerli üyeleri, Kıymetli misafirler,

Azerbaycan tarihinde silinmez izler bırakmış seçkin bir devlet adamı olan Haydar Aliyev'in doğumunun 100. Yılı münasebetiyle bugün sizlere hitap etmekten onur duyuyorum.

Sayın Haydar Aliyev'in Azerbaycan'ın siyasi ve sosyal gelişimine katkılarını ölçmek muhakkak mümkün değildir.

Haydar Aliyev, Azerbaycan'ın modern kimliğinin şekillenmesinde ve 21. Yüzyıldaki başarısının temellerinin atılmasında çok önemli bir rol oynamıştır.

Onun vizyonu, liderliği ve Azerbaycan halkına sarsılmaz sadakati her zaman hatırlanacak ve minnetle yadedilecektir.

Büyük devlet adamı Haydar Aliyev'in vizyonunu devam ettirerek bu gelişmeye katkı sağlayan Sayın Cumhurbaşkanı İlham Aliyev'i de tebrik ve takdir ediyorum. İlham Aliyev Haydar Aliyevin başladığı büyük işleri dünya çapına kaldırmışdır.

Haydar Aliyev'in hayatını ve mirasını anarken, Azerbaycan ve Türkiye'nin birlik ve beraberliğini de düşünmek gerekir. İki millet derin bir tarihi ve ortak kültürü paylaşmaktadır. Bu dostluğumuz ve ortaklığımız zamanla daha da güçlenmiştir.

Azerbaycan ve Türkiye arasındaki bağların kökleri yüzyıllara dayanan ortak tarih ve kültüre dayanmaktadır. Türk halkları uzun bir dayanışma geleneğine sahiptir ve milletlerimiz her kötü günde her daim bir arada olmuştur.

Türk halkı, Azerbaycan'ın egemenliğinin, toprak bütünlüğünün ve kalkınmasının kararlı bir destekçisi olmuştur.

Bugün Azerbaycan ve Türkiye, enerjiden ulaştırmaya, savunmadan güvenliğe kadar pek çok alanı kapsayan güçlü bir stratejik ortaklık kurmuştur. İşbirliğimiz hiç bu kadar güçlü olmamıştı ve önümüzdeki yıllarda bağlarımızı derinleştirmeye kararlıyız.

İki ülkenin birlik ve beraberliği, sadece karşılıklı çıkarlarımız için değil, tüm bölgenin istikrarı ve refahı için elzemdir.

Azerbaycan ve Türkiye, karmaşık ve sürekli değişen bir dünyada istikrarla büyüyor ve gelişiyor. Önümüzde duran diğer tüm zorlukların üstesinden gelmek için birlikte çalışmak zorundayız.

Birlik ve beraberliğimizin en önemli örneklerinden biri de bölgemizi otuz yılı aşkın süredir etkisi altına alan Karabağ sorununun çözümü için ortak çaba göstermemizdir.

Azerbaycan, 2020'de topraklarını Ermeni işgalinden kurtarmak için askeri bir operasyon başlattığında, Azerbaycan'a desteğini ilk dile getiren ülkelerden biri doğal olarak Türkiye olmuştur.

Bu süreçte Türkiye Cumhurbaşkanı Recep Tayyip Erdoğan ve diğer üst düzey yetkililer, Azerbaycan'la dayanışma içinde olduklarını her daim ifade etmişlerdir ve Azerbaycan topraklarının Ermenistan tarafından yasa dışı işgalini ilk günden bugüne hep karşısında durmuş ve kınamışlardır.

44 gün süren ihtilaf boyunca Türkiye, Azerbaycan'a kritik siyasi, manevi ve askeri destek sağlamaktan geri durmamıştır. Bu destek de gidişatı Azerbaycan kuvvetlerinin lehine çevirmeye yardımcı oldu.

Türk insansız hava araçları ve diğer askeri teçhizat, Ermeni kuvvetlerine ağır kayıplar vermede çok önemli bir rol oynamıştır.

Türkiye'nin siyasi ve diplomatik çabaları, Azerbaycan'ın hızlı ve kesin bir zafer kazanmasına yardımcı olmuştur.

Bahtiyar Vahapzade'nin de dediği gibi "Azerbaycan ve Türkiye bir ananın iki oğludur".

Bir ananın iki oğlu,
Bir amaçın iki kolu.
O da ulu, bu da ulu.
Azerbaycan - Türkiye.

Azerbaycan ile Türkiye arasındaki birlik ve beraberliğin kökleri, ortak kültür, dil ve değerlerin uzun ve zengin tarihine dayanmaktadır.

İlişkimiz modern çağda gelişmeye devam etmiştir. Bizlerde bölgemizde barışı, istikrarı ve refahı desteklemek için birlikte çalışmaya kararlıyız.

Karabağ sorunu, birbirimize destek olma yönündeki ortak çabalarımızın sadece bir örneğidir. Bu bilinçle bizler önümüze çıkan her türlü zorluk karşısında birlikte durmaya devam edeceğiz.

Türkiye Bilimler Akademisi ile Azerbaycan Milli Bilimler Akademisi arasında da kardeşlik ve hemreylik devam ediyor. Kadim dostum İsa Habibbeyli ile imzaladığımız memorandum Haydar Aliyev - İlham Aliyev ideallarının ışığında halklarımız gibi bilim adamlarımızı da ilerletecektir.

Sonuç olarak, milletlerimiz için daha parlak bir gelecek inşa etme sözümüz için bir arada ve birlik içinde durmaya devam edeceğimizi söylemek istiyorum. Bugün Haydar Aliyev'in mirasını onurlandırırken, büyük milletlerimizin kaderini şekillendirmede birlik ve beraberliğin önemini de tekrar hatırlatıyorum.

Haydar Aliyev sonsuzluğa ulaşmış büyük bir liderdir ve yaşıyor.

Değerli huzuruna selam ve saygılarımı sunarım.

Teşekkür ederim.

## Özbəkistan Elmlər Akademiyasının vitse-prezidenti, akademik Siracəddin Mirzayevin çıxışı



Уважаемые дамы и господа !

Для меня большая честь выступать перед лучшими представителями интеллигенции Азербайджана !

Отношения узбекского и азербайджанского народов уходят своими корнями вглубь веков. Исторические и культурные параллели, общая религия, родство языка, близость традиций и обычаев способствовали налаживанию братских отношений двух государств. Этими факторами объясняется обоюдный интерес государств друг к другу, а также естественное стремление к закладыванию правового фундамента межгосударственных контактов и отношений, практически с первых же дней обретения политической независимости.

Как известно, в процессе становления правового фундамента межгосударственных отношений исключительно важную роль занимают встречи глав государств. В этой связи стоит отметить, что между лидерами Узбекистана и Азербайджана на сегодняшний день было осуществлено 14 визитов на высшем уровне: из них 6 - с узбекской стороны и 8 - с азербайджанской, результатом которых стало подписание 153 документов, способствующих формированию многогранного сотрудничества двух государств.

После прихода к власти Гейдара Алиева, политические, экономические и культурные связи Азербайджана с Узбекистаном восстанавливаются и начинают плодотворно развиваться.

Важной вехой в деле становления взаимных отношений двух братских государств стало установление дипломатических отношений между Республикой Узбекистан и Азербайджанской Республикой 2 октября 1995 года. Далее, для активного ведения межгосударственного диалога и закладки правовых основ сотрудничества, были открыты посольства. Посольство Азербайджанской Республики в Республике Узбекистан было открыто в июне 1997 года, в ходе официального визита Гейдара Алиева , а в июле 1998 года открылось Посольство Республики Узбекистан в Азербайджанской Республике.

Следующий этап во взаимоотношениях двух стран открыл официальный визит первого Президента Республики Узбекистан Ислама Каримова в Азербайджан 26-27 мая 1996 года. Визит прошел в условиях взаимопонимания и дружбы, между двумя странами был подписан пакет договоров, состоявший из более 20 соглашений, охватывающих широкий диапазон сотрудничества.

В ходе визита Гейдара Алиева в Узбекистан 18 июня 1997 года, придавшего новый импульс двусторонним отношениям, были обсуждены ключевые вопросы взаимоотношений сторон, послуживших дальнейшему расширению и углублению двустороннего сотрудничества, заложены их фундаментальные правовые основы. Отличительной особенностью данного визита является достижение договоренности в приеме целого ряда весомых межгосударственных документов, общей численностью 19 договоров, главным из которых была Декларация о дальнейшем развитии всестороннего сотрудничества и отношений партнерства между Республикой Узбекистан и Азербайджанской Республикой.

Еще один шаг к плодотворному узбекско-азербайджанскому сотрудничеству был сделан в ходе переговоров глав государств, состоявшихся 27-28 сентября 2010 года в Ташкенте. По их итогам, было подписано Соглашение о сотрудничестве между Академией художеств Узбекистана и Институтом архитектуры и искусства Национальной академии наук Азербайджана, а также ряд других документов, свидетельствующих о дальнейшем укреплении двустороннего взаимодействия в различных областях .

Учитывая вышеобозначенные реформы, подлинно знаменательным событием в развитии узбекско-азербайджанского сотрудничества стал визит Шавката Мирзиёева в Азербайджан. Глава Узбекистана 14 октября 2019 года прибыл в Баку для участия в седьмом саммите Совета сотрудничества тюркоязычных государств (ныне Организация тюркских государств). Особое внимание было уделено налаживанию деловых контактов на уровне ведущих компаний и предпринимателей Узбекистана и Азербайджана, а также развитию кооперации в промышленности, сельском хозяйстве, транспортной сфере и других ключевых отраслях.

Новую веху в двусторонних отношениях по праву открыл государственный визит Президента Азербайджанской Республики Ильхама Алиева в Республику Узбекистан, состоявшийся 21-22 июня 2022 года. Визит начался с открытия в Ташкенте обновленной улицы имени Гейдара Алиева, сквера и памятного барельефа.

(продолжение на стр. 6)

# AMEA-nın Ümumi yığıncağının 100 illik yubileyinə həsr

(начало на стр. 5)

Главным и основополагающим документом, подписанным, в результате переговоров между Президентами Шавкатом Мирзиёевым и Ильхамом Алиевым стала - "Декларация об углублении стратегического партнерства и наращивании всестороннего сотрудничества между Республикой Узбекистан и Азербайджанской Республикой" .

Итак, прочная правовая база узбекско-азербайджанского сотрудничества способствует развитию и всестороннему совершенствованию взаимовыгодных отношений двух государств на перспективу.

Торгово-экономические связи являются приоритетом узбекско-азербайджанского сотрудничества, так как именно они, способствуют улучшению жизненного уровня и благополучия народов двух стран.

Подтверждением особой значимости и прорывного характера государственного визита Президента Ильхама Алиева в Узбекистан служит узбекско-азербайджанский бизнес-форум в Ташкенте, собравший более 100 представителей власти и деловых кругов, организованный в преддверии визита высокопоставленного гостя в июне 2022 года.

Целесообразно также отметить и состояние узбекско-азербайджанских торгово-экономических отношений, о положительной динамике которых свидетельствует почти шестикратный рост товарооборота с 2016 года. Товарооборот между Узбекистаном и Азербайджаном за 2022 год составил $181,8 млн., в том числе: экспорт - $132,3 млн., импорт - $49,5 млн.

В то же время культурно-гуманитарные связи между двумя тесно переплетенными узами родства народов являются той духовной скрепой, которая удерживает всю конструкцию межгосударственных отношений, определяя их характер и глубину. Сегодня налажен тесный обмен научно-исследовательских и образовательных учреждений двух стран, активно проводятся различные совместные мероприятия.

Правительство Узбекистана продолжает уделять особое внимание поддержке диаспоры этнических азербайджанцев, их всестороннему социальному, духовному и культурному развитию. Это, в свою очередь, позволяет сохранять и развивать национальную культуру, родной язык, обычаи и традиции более 41,3 тысяч азербайджанцев. В Узбекистане действуют 7 азербайджанских национальных культурных центров, главенствующее место среди которых по праву занимает Азербайджанский культурный центр им. Гейдара Алиева при Посольстве Азербайджанской Республики. Их деятельность координирует созданная в 2003 году Ассоциация азербайджанских культурных центров.

Руководство двух стран искренне дорожат сложившимися взаимоотношениями в культурно-гуманитарной области. Так, во время официального визита Ильхама Алиева в Узбекистан 23-24 марта 2004 года в Ташкенте состоялась церемония открытия Азербайджанского культурного центра им. Гейдара Алиева. Открытию культурного центра предшествовало присвоение улице, на которой расположен культурный центр имени Г. Алиева. Кроме этого, в ходе официального визита Ильхама Алиева в Узбекистан состоялось открытие памятника великому азербайджанскому поэту Низами Гянджави и нового здания посольства Азербайджанской Республики.

В рамках визита Ильхама Алиева в Узбекистан 2022 года состоялось открытие в Ташкенте обновленной улицы имени Гейдара Алиева, сквера и памятного барельефа. В торжественной церемонии приняли участие Президент Узбекистана Шавкат Мирзиёев и Президент Азербайджана Ильхам Алиев.

Также в ходе переговоров Глав государств был достигнут целый ряд договоренностей, направленных на укрепление культурно-гуманитарных связей, в частности, о проведении Дней культуры и кино, усилении контактов вузов, научных учреждений, спортивных и молодежных организаций.

В пропаганде культурного наследия двух стран, еще большей ее популяризации, не последнее место занимают Дни культуры и кино, литературные недели и другие аналогичные мероприятия. Так, 2-4 ноября 2019 года в Хорезмской области, 20-23 октября 2021 года - в городах Ташкент, Нукус и Ургенч, 8-9 апреля 2022 года в Термезе прошли Дни культуры и литературы Азербайджана; в сентябре 2021 года в рамках Ташкентского международного кинофестиваля "Жемчужина Шёлкового пути" - Дни азербайджанского кино; 1-3 декабря 2021 года в Ташкенте -"Неделя трудов Низами Гянджеви и Алишера Навои".

В деле укрепления культурных взаимоотношений следует также отметить и литературные связи двух государств, способствующих усилению познаний культурного достояния двух стран, знакомству с творчеством азербайджанских и узбекских классиков, переводческой деятельности. По средствам чего, узбекская общественность знакомится с достоянием азербайджанской литературы, а азербайджанская - с узбекской. Например, в ходе "Недели трудов Низами Гянджеви и Алишера Навои", была издана книга "Алишер Навоий хикматлари" на азербайджанском языке.

Особая роль в данной отрасли сотрудничества отводится науке и образованию. В этой связи, целесообразно отметить взаимодействие между Академиями наук двух стран, координирующих весь спектр научных взаимоотношений.

Немаловажную роль в научном сотрудничестве занимают и прямые контакты между ВУЗами Узбекистана и Азербайджана. Так, в 2011 году в Ташкент пребыла делегация Азербайджанской Дипломатической академии, с целью установления тесных контактов с профессорско-преподавательским и педагогическим составом Университета мировой экономики и дипломатии; 18 декабря 2013 года был подписан Меморандум между Азербайджанским государственным педагогическим университетом и Ташкентским государственным педагогическим университетом имени Низами; 25 апреля 2014 года был подписан Меморандум о сотрудничестве между Академией художеств Азербайджана и Институтом художеств и дизайна Узбекистана имени Камолиддина Бехзода. В июле 2019 года был подписан Меморандум о взаимопонимании в области образования и науки между Международным университетом туризма "Шелковый путь" в Самарканде и Азербайджанским университетом туризма и менеджмента; 20 ноября 2019 года между Азербайджанским государственным университетом нефти и промышленности и Ташкентским государственным техническим университетом был подписан Меморандум.

Итак, узбекско-азербайджанские отношения практически с первых же дней достижения республиками государственной независимости находились на высоком уровне. В последующие годы Руководство Узбекистана и Азербайджана всячески дополняло и расширяло это взаимодействие, отвечающее коренным интересам народов двух стран, наполняя его духом братства и дружбы. Посредством всего перечисленного узбекско-азербайджанское сотрудничество переросло в стратегическое партнерство.

Ученные всегда были точкой роста и сближали народы, пусть развивается наша сообщество и становится нерушимой теплые отношения между нашими народами, для чего так много сделал великий сын азербайджанского народа Гейдар Алиев, которого глубоко чтят и уважают в Узбекистане.

## Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun başqanı, professor Yüksel Özgenin çıxışı



Dost ve kardeş ülke Azerbaycan Cumhuriyeti'nin üçüncü Cumhurbaşkanı Umum Milli Lider ve Ulu Önder Haydar Aliyev'in 100. Doğum yıldönümünde burada bulunmaktan onur duyduğumu öncelikle belirtmek isterim.

Kafkasya, Anadolu ve hatta Avrasya coğrafyasının tarihinde önemli rolleri üstlenen devletlerden biri Türkiye diğeri ise Azerbaycan'dır. Milli ve kültürel bağlara sahip bu iki devlet, tarihsel süreçlerinde benzer hadiseler yaşamışlar ve her zaman birbirlerine destek olmuşlar.

Her iki kardeş halk için yakın dönem tarihinde süreç bu şekilde gelişmiş olsa da Türkiye ile Azerbaycan ortak tarihi mirasa sahip ve daima dostane ilişkiler kuran iki ülke olmuştur. İki devletin ilişkileri geçmişten günümüze, Mustafa Kemal Atatürk'ün "Azerbaycan'ın sevinci bizim sevincimiz, kederi bizim kederimizdir" sözü ile Azerbaycan'ın Milli Lideri Haydar Aliyev tarafından dile getirilen "Biz bir millet, iki devletiz" ilkeleri çerçevesinde şekillenmiştir.

Türkiye, 30 Ağustos 1991 tarihinde bağımsızlığını ilan eden Azerbaycan Cumhuriyeti'ni 9 Kasım 1991'de tanıyan ilk devlet olmuştur. Diplomatik ilişkiler 14 Ocak 1992'de kurulmuş ve Bakü'de Başkonsolosluk olarak görev yapmakta olan temsilciliğimiz Büyükelçilik düzeyine yükseltilmiştir. Azerbaycan'da ayrıca Nahçıvan ve Gence Başkonsolosluklarımız faaliyet göstermektedir. Azerbaycan'ın ise Ankara'daki Büyükelçiliğinin yanı sıra İstanbul ve Kars'ta da Başkonsoloslukları bulunmaktadır.

Özellikle SSCB döneminde çok sınırlı bir düzeyde seyreden Azerbaycan - Türkiye ilişkileri Sovyetlerin dağılmasından sonraki dönemde tekrar canlanmış, Azerbaycan'ın bağımsızlığını elde etmesiyle iki devlet daha da yaklaşmıştır. 1993-2003 yılları arasındaki 10 yıllık bir dönemi kapsayan Haydar Aliyev döneminde Türkiye Azerbaycan ilişkileri büyük aşama kaydetmiştir. Azerbaycan'ın doğal kaynaklarının ülke çıkarları doğrultusunda kullanılması için Aliyev "Asrın Antlaşması"yla Hazar enerji kaynaklarını tüm dünyaya tanıtarak Batılı devletlerinin ilgisini ülkeye çekmeyi başarmıştır. Aliyev döneminde Türkiye Azerbaycan ilişkileri başta siyaset ve ekonomi olmak üzere, hemen hemen tüm sosyal alanlarda büyük gelişme göstermiştir. O dönemde başlayan ilişkiler zamanla daha da ilerleyerek iki ülke arasındaki yakınlık, günümüzde stratejik ortaklık düzeyine ulaşmıştır.

Yoğun şekilde devam eden karşılıklı üst düzey ziyaretler, ilişkilerin arkasındaki en önemli itici güçtür. İki ülke devlet yetkililerinin göreve geldikten sonra veya sembolik önemi haiz gelişmelerin ardından diğer ülkeyi öncelikli olarak ziyaret etmeleri şeklinde bir gelenek yerleşmiştir.

İkili ilişkilerin daha da güçlendirilmesi amacıyla 2010 yılında Cumhurbaşkanları düzeyinde Yüksek Düzeyli Stratejik İşbirliği Konseyi (YDSK) mekanizması tesis edilmiştir. Bunun yanı sıra, Sayın Cumhurbaşkanımızın Azerbaycan'ı ziyareti vesilesiyle 15 Haziran 2021 tarihinde imzalanan Şuşa Beyannamesiyle, ilişkilerimizi müttefiklik seviyesine yükseltme irademiz kayda geçirilmiş olup, Şuşa Beyannamesi 1 ve 3 Şubat tarihlerinde her iki ülke Parlamentolarınca onaylanarak yürürlüğe girmiştir.

Azerbaycan ile tesis edilen üçlü ve dörtlü işbirliği mekanizmaları da bölgesel istikrar, barış ve refaha katkı sağlayan önemli platformlardır. Zira Türkiye-Azerbaycan ilişkilerinin Şuşa Beyannamesiyle müttefiklik boyutuyla tescil edilmesi süren işbirliğinin Kafkasya'yı aşıp Türk Dünyasına örnek olması ve etkilerinin global düzeyde görülmesi süreci ortaya çıkmıştır.

Türkiye ile Azerbaycan arasındaki tek kara bağlantısını oluşturan Nahçıvan Özerk Cumhuriyeti, ülkemizin Azerbaycan'la ikili ilişkileri açısından ayrı bir yer tutmakta olup, Azerbaycan halkı ile doğrudan bağlantı noktamızı oluşturmaktadır.

Ülkemiz, Karabağ topraklarının özgürlüğe kavuşturulmasıyla sonuçlanan 44 gün süren İkinci Karabağ Savaşı'nın ardından, Azerbaycan ile Ermenistan arasında barış anlaşması imzalanması ve iyi komşuluk ilişkilerinin tesis edilmesini arzu etmektedir. Ayrıca ülkemiz, Karabağ topraklarında altyapı çalışmalarının yapılması, refahın arttırılması, enerji ile ticaret hatlarının işlevsel hale getirilmesi ve bölgesel bağlantının güçlendirilmesi yönündeki çalışmaları bir devlet politikası olarak desteklediğini bütün platformlarda ifade etmektedir.

Elbette ortak bir tarihe sahip olan iki ülke arasında kültür, dil ve tarih üzerine yapılan akademik çalışmalar da mevcuttur. Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu olarak görevimiz, sosyal ve beşeri bilimler bütünlüğü içinde Türk dili, tarihi ve kültürü ile Atatürk ve eseri üzerine özgün bilimsel araştırmalar yapmak ve yapılmasını sağlamaktır. Bu çerçevede yapılan çalışmaları daha sistemli bir şekilde sürdürmek ve geliştirmek adına, Kurumumuz ve Azerbaycan Milli İlimler Akademisi arasında bir işbirliği protokolü imzalanmıştır.

Buna somut örnek vermek gerekirse; Örneğin kurumumuz bünyesinde yer alan Atatürk Araştırma Merkezi Başkanlığı ile

# Ümummilli Lider Heydər Əliyevin olunmuş Xüsusi iclası

Azerbaycan Milli İlimler Akademisi Tarih Enstitüsü arasında 5 Nisan 2013 tarihinde Bilimsel İşbirliği Protokolü imzalanmıştır.

Bu protokol kapsamında, ortak Türk Tarihi Yazımı çerçevesinde; ”Türk Meşhurları” ve ”Türk Devletleri” konulu iki proje çalışmasına başlanmış ve son aşamaya gelinmiştir. Ayrıca ”Haydar Aliyev ve Azerbaycan'da Milli Siyaset”, ”Azerbaycan'da İlk ve Ortaöğretimde Tarih Öğretimi ve Ders Kitapları”, ”20.Yüzyılda Ermenistan-Azerbaycan Dağlık Karabağ Sorunu” , ”Avrupa Diplomasisinin ”Ermeni Meselesi” mi, Yoksa Türkiye'nin Bölüştürülmesi Planı mı?” ve ”Kafkasya'nın Yükselen Yıldızı İlham Aliyev Döneminde Azerbaycan” adlı telif eserler ile Yine Azerbaycan Tarih Enstitüsü tarafından hazırlanmış olan ”İrevan Hanlığı” adlı eser kurumumuz tarafından yayımlanmıştır.

